Dövlətimizin başçısı müşavirədən sonra "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 27 iyul 2020-ci il tarixli və "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 12 avqust 2020-ci il tarixli sərəncamlar imzalayıb. Ölkə rəhbəri, eyni zamanda, 27 iyul 2020-ci il tarixli müvafiq sərəncamla "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı" təsdiqləyib.

dövlət büdcəsinin vəsaiti hesabına güzəştlərin tətbiqi ilə əlaqədar maliyyə vəsaitinə yaranmış ehtiyacın qarşılanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan və dövlət büdcəsindən hər birindən 20 milyon manat olmaqla, ümumilikdə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 40 milyon manat ayrılıb.

Prezident İlham Əliyevin avqustun 12-də imzaladığı "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə

Hazırda ölkəmizdə suvarma suyunda yaranan problemin aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilir. İmişlidəki antropen göllərdən Baş Muğan kanalına qısa müddətdə 3,5 milyon kubmetr su vurulub. Nəticədə İmişli, Saatlı və Sabirabadın əkin sahələrində suvarma işləri daha da yaxşılaşıb. Görülən işlərin davamı olaraq İmişli rayonu ərazisində yerləşən göllərə baxış keçirilib və həmin su mənbələrindən suvarma işləri üçün istifadə etmək məqsədəuyğun sayılıb.

Artıq göl üzərində yerləşən üzən nasos stansiya vasitəsilə avqustun 3-dən Baş Muğan kanalına su vurulmasına

də fermerlərin daha çox məhsul istehsalına əlverişli imkan verir. Bu məqsədlə Azərbaycan Prezideni müasir suvarma texnologiyalarının subsidiyalaşdırılması üçün əlavə vəsait ayırıb. Bu vəsaitin dövlət başçısının tapşırığına uyğun olaraq əsasən müasir suvarma sistemlərinin subsidiyalaşdırılmasına xərclənməsi nəzərdə tutulub.

Yeri gəlmişkən, bu gün respublikada damlama suvarma sisteminin tətbiq edilməsinə daha böyük ehtiyac duyulur. Elə buna görə də fermerlər tərəfindən Kənd Təsərrüfatı Nazirliyinə müraciətlərin sayı getdikcə artır.



***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 23-də videoformatda keçirilən su təsərrüfatının vəziyyətinə həsr edilən müşavirədə respublikada içməli su və meliorasiya layihələrinin hər zaman diqqət mərkəzində saxlanıldığını, bu sahədə böyük həcmdə iş görüldüyünü, lakin qarşıya qoyulan məqsədə hələ tam nail olunmadığını bildirib. Ona görə də bundan sonra içməli su və meliorasiya layihələrinin gündəlikdə ən vacib məsələlər kimi duracağını diqqətə çatdırıb.***

# Aqrar sektorda su çatışmazlığının aradan qaldırılması üçün ciddi tədbirlər görülür

İstər müşavirədə, istərsə də adları çəkilən sənədlərdə Kənd Təsərrüfatı Nazirliyi və aidiyyəti qurumlar qarşısında konkret və ciddi vəzifələr qoyulub.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyindən verilən məlumatda bildirib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ayrılan vəsaitin xüsusilə müasir suvarma sistemlərinin alışına yönəldiləcək. Məlumatda, həmçinin 2019-2020-ci illərdə müasir suvarma sistemlərinin alınması üçün fermerlərə dövlət tərəfindən 30 milyon manata yaxın güzəşt məbləğin ödənildiyini də vurğulanıb: "Kənd Təsərrüfatı Nazirliyində ölkənin su ehtiyatlarının istifadəsində səmərəliliyi artırmaq məqsədilə fermerlər arasında müasir suvarma sistemlərinin tətbiqinin təşviqi prioritet məsələ kimi diqqətdə saxlanılır. Torpaq sahələrinin həcmindən asılı olaraq hər növ müasir tipli suvarma sistemi mövcuddur və bu sistemlər ölkəmizdə müxtəlif təchizatçılar tərəfindən təklif edilir. Sudan səmərəli istifadə edərək və su itkisinə yol vermədən yüksək məhsuldarlığa nail olmaq mümkündür. Dövlətin təqdim etdiyi güzəşt və faizsiz kredit fermerlər üçün müasir suvarma sistemlərini daha əlçatan edir".

Qeyd edək ki, ölkə başçısının imzaladığı müvafiq sərəncamla kənd təsərrüfatı texnikasına, texnoloji avadanlığa, suvarma sistemləri və soyuducu anbar dəstlərinə, damazlıq heyvanlara

tədbirlər haqqında" sərəncama əsasən, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Dövlət Neft Şirkətinə əhalisi 65 min 122 nəfər olan 15 rayonun 24 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 24 ədəd subartezian quyusunun qazılmasını təmin etmək tapşırılıb. Həmçinin bu məqsədlər üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 756 min manat ayrılıb.

başlanılıb. Səkkiz gün ərzində Baş Muğan kanalına 3,5 milyon kubmetr su nəql edilib və kanal boyunca yerləşən, su çatışmazlığından əziyyət çəkən əkin sahələrinin su təminatı yaxşılaşıb. Görülən işlər xüsusilə də İmişli və Saatlı, qismən də Sabirabad rayonlarının pambıq tarlalarında suvarma işlərinə müsbət təsir göstərib. Ümumiyyətlə, vurulan su hesabına həmin rayonlarda 5 min hektar sahənin suvarılması yaxşılaşıb.

Bu gün qarşıda duran əsas vəzifələrdən biri müasir, mütərəqqi suvarma texnologiyalarından istifadə olunmasıdır. Bu texnologiyalar həm su resurslarından səmərəli istifadəyə, həm



Hazırda fermerlər su çatışmazlığının mənfi nəticələrini aradan qaldırmaq üçün suvarmada müasir texnologiyalara, innovativ üsullara daha çox üstünlük verirlər. Çünki təsərrüfatlarda müasir suvarma sistemlərinin quraşdırılması fermerlərin sudan qənaətlə istifadəsinə əlverişli şərait yaradır. Eyni zamanda, müasir sulama üsulları məhsulun maya dəyərini aşağı salır, məhsuldarlığı çoxaldır, fermerlərin gəlirlərini artırır.

Məhz bu səbəbdən də suvarma sistemləri güzəşt tətbiq olunan kənd təsərrüfatı texnikası və avadanlığı siyahısına daxil edilib. Fermerlər 20 faiz ilkin ödəniş hesabına bu müasir sistemləri alaraq təsərrüfatlarında istifadə edirlər. Alınan məhsulun qiymətinin 40 faizi dövlət, qalan 40 faizi isə banklar tərəfindən kreditləşdirilir. Kreditin əsas hissəsini fermer, faizlərini isə yenə dövlət ödəyir.

Fermerlərin bildirdiyinə görə, Azərbaycan Prezidentinin kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi hesabına verilən güzəştlərin maliyyələşdirilməsi ilə bağlı imzaladığı sözügedən sərəncam aqrar sahədə müasir texnologiyaların tətbiqini genişləndirmək və səmərəliliyi artırmaq üçün daha bir təkan olacaq.

*"Xalq qəzeti"*